

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 49 (23.211)

*12 mart 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavnanın etimadnaməsini qəbul edib.

Səfir Bavitlunq Vanlalvavna fəxri qarovul dəstəsinin qarşısından keçib.

Bavitlunq Vanlalvavna etimadnaməsini Prezident İlham Əliyevə təqdim edib.

Sonra Azərbaycan Prezidenti səfirlə söhbət edib.

Görüşdə ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və turizm sahələrində əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Səfir Bavitlunq Vanlalvavna diplomatik fəaliyyəti dövründə ölkələrimiz arasında əməkdaşlığın inkişafı naminə səylərini əsirgəməyəcəyini bildirib.

Prezident İlham Əliyev səfirə ölkəmizdə fəaliyyəti müddətində uğurlar arzulayıb.



## "Naxçıvan Şəhər Ticarət və Xidmət Departamenti" publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində "Naxçıvan şəhər Ticarət və Xidmət Departamenti" publik hüquqi şəxsi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin və bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 9 mart 2019-cu il*

## Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilmişdir






Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Yeni hərbi hissələr istifadəyə verilir, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması diqqətdə saxlanılır.

Bu sahədə görülən işlərin davamı olaraq martın 9-da Əlahiddə Ümumqoşun Ordunun yeni Səhra Təlim Mərkəzi istifadəyə verilmişdir.

Ali Məclisin Sədri təlim mərkəzində yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, təlim mərkəzi şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində bütün zəruri vasitələrlə təmin edilmişdir. Ərazidə yeni yaşayış və xidmət binası inşa olunmuş, lazımi şərait yaradılmışdır. Binada rabitə, ideoloji, yataq, yemək və texniki otaqlar istifadəyə verilmişdir. Təlim mərkəzində manevrlər zolağı və təlim idarəetmə məntəqəsi yaradılmış, yollar çəkilmiş, yaşıllıq zolağı salınmışdır.



Səhra təlimlərinin keçirilməsi üçün ərazidə yeni düşərgə də qurulmuşdur. Düşərgədə şəxsi heyətin yaşayışı, qidalanması və xidmətin aparılması üçün tədbirlər görülmüş, yataq yerləri və məişət guşələri istifadəyə verilmişdir. Yaradılan şərait istənilən hava şəraitində təlimlərin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri muxtar respublikada ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirmiş, xidmətin təşkili ilə bağlı tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



# Darıdağ arsenli su müalicə və istirahət kompleksi inşa olunacaq



Naxçıvanda müalicə turizminin inkişafına geniş diqqət yetirilir. Bu sahədəki imkanlardan səmərəli istifadə olunur, yeni müalicə mərkəzləri fəaliyyətə başlayır. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi yaradılacaqdır.

Martın 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tikinti aparılacaq əraziyə gəlmiş, kompleksin layihəsinə baxmışdır.

Məlumat verilmişdir ki, Darıdağ arsenli suyu dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə də sübut olunub. Ona görə də Darıdağ arsenli suyundan müalicə məqsədilə geniş istifadə olunması diqqətdə saxlanılır. Bu məqsədlə ərazidə yeni kompleks inşa olunacaq, 4 mərtəbədən ibarət əsas korpusda otel və xidmət sahələri yaradılacaqdır. Burada qadın və kişilər üçün ayrı-ayrı müalicə hovuzları istifadəyə veriləcək, turistlərin istirahəti üçün lazımi şərait yaradılacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinə başlanılması ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

*Naxçıvan Muxtar Respublikası – 95*

# Naxçıvan Muxtar Respublikası yüksək sürətlə inkişaf edən bir diyara çevrilib

*Ümummilli lider Heydər Əliyevin Naxçıvanı ölkəmizin digər bölgələri kimi, qüdrətli bir diyara çevirmək siyasəti hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən 2003-cü ildən bu günə kimi uğurla həyata keçirilir. Naxçıvanı Ermənistanın blokadaya alması nəzərə alınaraq muxtar respublikanın sosial-iqtisadi inkişafının təmin edilməsi üçün Azərbaycan Respublikasının dövlət büdcəsindən hər il dotasiya verilir, investisiya ayrılır. Onu da qeyd etmək lazımdır ki, möhtərəm Prezidentimizin Naxçıvana göstərdiyi bu diqqət və qayğı muxtar respublikanın Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanın sosial-iqtisadi inkişafında və muxtar diyarın sakinlərinin rifah halının yaxşılaşmasında öz əksini tapır. Bunu təsdiq edən bəzi göstəriciləri diqqətinizə çatdırmaq istəyirəm.*



Muxtar respublikada 2010-cu ilə nisbətən 2018-ci ildə sənaye məhsulu istehsalı 3,1 dəfə artmaqla qeyri-dövlət sektorunun xüsusi çəkisi 94,7 faiz təşkil etmişdir. Azərbaycan Respublikasında bu artım 1,7 dəfə olmaqla qeyri-dövlət sektorunun xüsusi çəkisi 82,6 faiz təşkil etmişdir. Göründüyü kimi, muxtar respublikada sənaye məhsulunun artımı əsasən özəl sektorun hesabına təmin olunur ki, bu da sahibkarların muxtar diyarın inkişafına həvəslə yatırım etmələri üçün əlverişli şərait yaradıldığını göstərir. Kənd təsərrüfatı məhsulları istehsalında da muxtar respublikada yüksək artım tempi əldə edilmişdir. Belə ki, 2018-ci ildə adambaşına min manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da ölkəmizin orta göstəricisindən xeyli çoxdur. Onu da qeyd etmək lazımdır ki, kənd təsərrüfatı məhsulları istehsalının artımı əsasən məhsuldarlığın yüksəldilməsi hesabına əldə olunur. Belə ki, 2018-ci ildə dənli və dənli-paxlalıların hər hektardan məhsuldarlığı Naxçıvan Muxtar Respublikası üzrə 32 sentner (Şərur rayonunda isə 42,3 sentner), kartofun məhsuldarlığı 154 sentner, meyvə və giləmeyvə 134,2 sentner, üzümün məhsuldarlığı isə 138,1 sentner olmuşdur ki, bu da ölkəmizin əksər rayonlarında əldə olunan məhsuldarlıqdan xeyli yüksəkdir. Əlbəttə, bu yüksək göstəricilər muxtar respublikada bir neçə dəryaçanın tikilməsi, suvarma sistemlərinin yenidən qurulması, başlıcası isə fermerlərin əzmkarlığının nəticəsində mümkün olmuşdur.

Həyata keçirilən bu tədbirlər nəticəsində Naxçıvan Muxtar Respublikası son illər sənayenin və kənd təsərrüfatının yüksək sürətlə inkişaf etdiyi bir diyara çevrilmişdir. Hazırda muxtar respublikada yeni sənaye sahələri yaradılmış və artıq burada istehsal olunan minik avtomobilləri, elektrik enerjisi, sement və digər məhsulların bir çoxu Azərbaycan Respublikasına göndərilir və xarici ölkələrə ixrac olunur. Azərbaycan Respublikasından birbaşa yardım almaq imkanı olmayan Naxçıvan Muxtar Respublikası uzun müddətdir ki, öz əhalisinin ərzaq təhlükəsizliyini yerli istehsal hesabına tam təmin edir. Bu, çox uğurlu bir nəticədir və əksər dünya ölkələrinin yerinə yetirə bilmədikləri arzudur.

Onu da qeyd etmək istəyirəm ki, Naxçıvan Muxtar Respublikasının rəhbərliyi muxtar diyarın sosial-iqtisadi inkişafının təmin edilməsi ilə yanaşı, həm də Naxçıvanın ərazi bütövlüyünün təmin edilməsi üçün əhalinin və ordunun vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində çox faydalı işlər görür. Bunun nəticəsidir ki, keçən il erməni işğalında olan 11 min hektar ərazi geri qaytarılaraq muxtar respublikanın istifadəsinə verilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın dövlət büdcəsindən muxtar respublikaya ayrılan maliyyə vəsaitləri öz təyinatına uyğun düzgün istifadə edilməklə Naxçıvanın sosial-iqtisadi inkişafına və əhalinin rifahının yaxşılaşmasına, bölgənin təhlükəsizliyinin təmin olunmasına xidmət edir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin aşağıdakı fikirləri Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətini çox dolğun şəkildə ifadə edir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının da qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".*** Ümummilli lider Heydər Əliyevin "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" imzaladığı 1999-cu il 4 fevral tarixli Fərmanında Naxçıvanın muxtariyyətini şərtləndirən başlıca tarixi-coğrafi amillər belə ifadə olunub: *"Azərbaycan Xalq Cümhuriyyəti dövründə sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi".* Hesab edirəm ki, bu fikir Naxçıvanın muxtar statusunun hansı zərurətdən yarandığına tam aydınlıq gətirir. Bununla belə, məsələyə ətraflı izah vermək üçün doğma diyarımız olan Naxçıvanın çox da uzaq olmayan keçmişinə qısa tarixi səyahət etsək, bu səlahiyyətin verilməsini şərtləndirən səbəblərin hələ bir qədər əvvəlki dövrlərdən başladığını və onların bu gün də mövcud olduğunu bir daha yəqin etmiş olarıq.

Belə ki, 1826-1828-ci illər Rusiya-Qacar müharibəsi dövründə Naxçıvan rus qoşunları tərəfindən işğal olundu, Türkmənçay müqaviləsinə əsasən isə xanlığın ərazisi çar Rusiyasına ilhaq edildi. İstiladan sonra çar hökuməti İrandan və Türkiyədən 10 minlərlə erməni ailəsini Naxçıvana köçürərək Naxçıvan və İrəvan xanlıqları ərazisində erməni vilayəti yaratdı. 1840-cı ildə Naxçıvan diyarı çar hökumətinin Qafqazda apardığı inzibati islahata əsasən Gürcüstan-İmeretiya quberniyasının tərkibində Naxçıvan qəzası kimi təşkil edildi. 1849-cu ildən isə İrəvan quberniyasının tərkibinə keçirildi.1917-ci ilin fevralında Rusiyada çar mütləqiyyəti devrildikdən sonra 1918-ci ildə erməni-daşnak hökumətinin maddi və mənəvi yardımına arxalanan "erməni milli komitəsi" Naxçıvan bölgəsində qarşıdurmanı, qırğınları daha da artırdı.1918-ci ilin payızında yerli əhalini erməni qırğınlarından qorumaq və Naxçıvanın yad əllərə keçməsinin qarşısını almaq məqsədilə Naxçıvan, Şərur, Mehri, Vedibasar, Qəmərli dairələrinin daxil olduğu Araz-Türk Respublikası yaradıldı və daşnak hökumətinin Naxçıvanı ilhaq etmək siyasətinin qarşısı alındı.

1920-ci il 28 apreldə Xalq Cümhuriyyətinin süqutundan sonra Azərbaycan Sovet Sosialist Respublikası yaradıldı və 28 iyul 1920-ci ildə Naxçıvan Sovet Respublikası elan olundu. Bu dövrdə tarixi Azərbaycan ərazisi olan Zəngəzur mahalı Ermənistan Respublikasına verildi. Ermənistan SSR hökuməti dəfələrlə Naxçıvanı özünə ilhaq etmək üçün siyasi cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında Azərbaycan, Ermənistan və Rusiya nümayəndələrinin təşəbbüsü ilə keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu Naxçıvan mahalının muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi. Naxçıvanın Azərbaycanın himayəsi altında muxtariyyət statusu Rusiya və Türkiyə arasında bağlanmış Moskva müqaviləsində (1921), daha sonra isə Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 13 oktyabr 1921-ci ildə bağlanmış Qars müqaviləsində təsbit edildi. Hər iki müqavilə Türkiyəyə Naxçıvan ərazisinə Azərbaycan Ordusundan başqa bir ordunun daxil olması halında, Naxçıvanın təhlükəsizliyini öz üzərinə götürmək hüququ verdi.

I Zaqafqaziya Sovetlər Qurultayı (1922, dekabr) Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi. 1924-cü il 8 yanvarda Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin plenumu Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının elan olunması barədə qərar qəbul etdi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli Dekreti ilə Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi rəsmiləşdirildi. Məhz bu tarix Naxçıvan Muxtar Respublikasının yaranma tarixi kimi qəbul edilmişdir.

1990-cı il noyabr ayının 17-də muxtar respublikanın Ali Sovetinin birinci sessiyasında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası Ali Soveti Ali Məclis adlandırıldı. SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında 1995-ci il 12 noyabrda referendum yolu ilə qəbul olunmuş Azərbaycan Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verdi və Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmaqla onun statusu hazırda bu Konstitusiya ilə müəyyən edilir. Əgər Moskva və Qars müqavilələri ilə Naxçıvanın tarixi-hüquqi statusu müəyyənləşmişdisə, müstəqillik dövründə qəbul olunan Konstitusiya ilə Naxçıvanın statusu yeni hüquqi məna kəsb etdi.

Göründüyü kimi, Naxçıvan ərazisinə muxtariyyət statusu kiminsə göstərişi və ya təklifi ilə yox, hələ XIX əsrdən başlayaraq Azərbaycan ərazisinə köçürülən ermənilərin qədim Azərbaycan torpağı olan Naxçıvan və indiki Ermənistan ərazisində yerləşdirilərək həmin vaxtdan indiyə kimi Azərbaycana qarşı torpaq iddiası etməsi, xüsusilə tarixi Azərbaycan ərazisi olan Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri edib və 100 il bundan əvvəl keçirilən ümumxalq səsverməsi ilə bu status təsbit olunub. Hesab edirəm ki, Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarılması təmin edilməyincə, bütün qonşularla, o cümlədən Ermənistanla normal qonşuluq münasibətləri bərpa olunmayanadək bu məsələni müzakirə etmək tamamilə yersizdir. Çünki belə məsələlər dövrün tələbinə uyğun əsaslı surətdə götür-qoy edildikdən sonra ümumxalq səsverməsi yolu ilə həll olunur.

Onu da qeyd etmək lazımdır ki, ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvanın Azərbaycan Respublikasının tərkibində muxtar respublika kimi fəaliyyətinin önəmli tarixi hadisə kimi yüksək qiymətləndirilməsinə dair ulu öndərin yeritdiyi siyasi xətti uğurla davam etdirir. Belə ki, muxtar respublikaya səfərləri çərçivəsində keçirdiyi görüşlərin birində dövlət başçısı naxçıvanlılara xitabən belə deyib: ***"Xalqımızın ümummilli lideri Heydər Əliyev Naxçıvana çox diqqətlə yanaşırdı. Ona görə yox ki, burada anadan olmuşdu, bura Onun vətəni idi. Ona görə ki, siyasi xadim kimi Naxçıvanın Azərbaycan üçün əhəmiyyətini çox gözəl başa düşürdü".***

Keçən əsrin 90-cı illərinin əvvəlində bütün SSRİ məkanında olduğu kimi, Naxçıvanda da insanlar sakit həyat yaşamaq və öz güzəranını bir qədər yaxşılaşdırmaq üçün başqa ölkələrə üz tuturdusa, son 15-20 ildə bu proses dayanıb. Hazırda muxtar respublikada əhalinin həyat səviyyəsi xeyli yüksəlmiş və artıq heç kim çörək dalınca digər ölkələrə getmir. Əgər Naxçıvandan əhalinin kütləvi axını varsa, onda 2018-ci ildə bir milyard manata yaxın sənaye, yarım milyard manatlıq kənd təsərrüfatı məhsulunu kimlər istehsal edib, 1,64 milyard manatlıq və ya adambaşına 3603 manatlıq (Naxçıvan şəhərində 7834 manatlıq) pərakəndə ticarət dövriyyəsi, 64,2 milyon manatlıq və ya

*Ardı 3-cü səhifədə*

adambaşına 141 manatlıq (Naxçıvan şəhərində 232 manatlıq) iaşə xidməti kimin hesabına baş verib? Onu da qeyd edim ki, bu göstəricilər ölkəmizin bir çox bölgələrindən xeyli yüksəkdir. Eyni zamanda keçən il muxtar respublikada adambaşına 0,83 kvadratmetr, Naxçıvan şəhərində isə 2,89 kvadratmetr (Azərbaycan Respublikasında 0,22, Bakı şəhərində 0,32 kvadratmetr) yaşayış evi kimlər üçün tikilib istifadəyə verilmişdir? Bununla belə, mən də etiraf edirəm ki, Azərbaycanın digər bölgələrində olduğu kimi, muxtar respublikadan da müəyyən insanlar başqa yerlərə gedirlər. Ancaq bunlar o insanlardır ki, öz bilik və bacarıqlarını, bizneslərini daha böyük ərazidə, dünyanın bir çox ölkələrinə çıxmaq üçün əlverişli imkanlara malik ölkələrə üz tuturlar. Bu, inkişaf etmiş ölkələrə də xas olan tam normal bir prosesdir və bunu yalnız alqışlamaq olar, nəinki qınamaq. Onu da bildirirəm ki, əvvəllər muxtar respublikanı tərk edənlər son illərdə geri qayıtmağa başlayıblar. Bu da onu göstərir ki, Naxçıvan Muxtar Respublikasında əhalinin həyat səviyyəsi gündən-günə yaxşılaşır, muxtar diyar səriştəli rəhbərlər tərəfindən dövrün tələbinə uyğun idarə olunur.

Belə ki, cənab Vasif Talıbovun Azərbaycan Respublikası Konstitusiyasının təsbit etdiyi Naxçıvan Muxtar Respublikasının ali vəzifəsi olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsi və onun bu vəzifədə həm qanunverici və həm də icra orqanlarına 24 ilə yaxın bir müddətdə uğurlu rəhbərliyi Ermənistanın blokadasında olmasına baxmayaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında möhtəşəm nailiyyətlər əldə olunmasını təmin etmişdir. Digər dövlətlərin də təcrübəsi göstərir ki, ölkə müharibə və blokada şəraitində olduqda, keçid dövrünü yaşadıqda və başqa fors-major hallarda hakimiyyətin bir əldə cəmlənməsi daha yüksək səmərə verir. Bu da o halda baş verir ki, hakimiyyət səlahiyyətlərindən düzgün istifadə olunsun. Naxçıvan Muxtar Respublikasının əldə etdiyi uğurlu nəticələr onu göstərir ki, Prezident cənab İlham Əliyevin uzun müddətdir ki, Naxçıvana ciddi nəzarəti, diqqət və qayğısı muxtar respublikanın rəhbəri tərəfindən yüksək əzmkarlıq və səfərbərliklə qarşılanır və bu da Naxçıvanın sosial-iqtisadi inkişafında və əhalinin rifah halının yaxşılaşmasında öz əksini tapır.

Muxtar respublikanın iqtisadiyyatında son illər baş verən bu misligörünməmiş yüksəliş, şübhəsiz ki, əhalinin sosial rifah halının yüksəlməsinə və Naxçıvanda sosial şəraitin yaxşılaşmasına öz müsbət təsirini göstərmişdir. Belə ki, muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2018-ci ildə 433 manat təşkil etməklə Azərbaycan Respublikasının digər iqtisadi rayonlarının hamısından yüksəkdir.

Fürsətdən istifadə edərək Azərbaycan xalqını və Naxçıvan Muxtar Respublikasının əhalisini muxtar respublikanın yaranmasının 95 illiyi münasibətilə təbrik edirəm, ölkəmizin digər bölgələri kimi, qədim diyarımızın da daha yüksək nailiyyətlər əldə etməsini, xalqımızın firavan yaşamasını arzu edirəm.

**Eldar İBRAHİMOV**

***Azərbaycan Respublikası Milli Məclisinin Aqrar siyasət komitəsinin sədri, Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü***

***Yeniazerbaycan.com***

## Mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələrinin görüşü keçirilib

*Martın 9-da Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri əməkdaşlarının görüşü keçirilmişdir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Təhminə Babayeva muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının 2018-ci il və bu ilin ötən dövründəki fəaliyyəti barədə məlumat verərək demişdir ki, qeyd olunan dövrdə mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin “Şərq qapısı”nda, şəhər və rayon qəzetlərində 2431 materialı dərc olunmuş, teleradiolarda 2595 veriliş və xəbər süjeti hazırlanmış, müxtəlif sosial şəbəkələrdə 5082 material yerləşdirilmişdir. Aparılan təhlillər onu göstərir ki, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin, “Naxçıvanqaz” İstehsalat Birliyinin mətbuatla əlaqəsi zəif qurulmuşdur.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi, Naxçıvan Muxtar Respublikası Prokurorluğu, Gənclər və İdman Nazirliyi, Maliyyə Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Statistika Komitəsi, Dövlət Qulluğu Məsələləri üzrə Komissiya, Dövlət Miqrasiya Xidməti, “Naxçıvanqaz” İstehsalat Birliyinin rəsmi internet saytlarında təşkilatların fəaliyyəti ilə yanaşı, Naxçıvan Muxtar Respublikasının müasir inkişafını, tarixi-mədəni irsini və turizm potensialını əks etdirən



fotoşəkillər və videolar yerləşdirilərək fəal təbliğat işi aparılır. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar, Ədliyyə, İqtisadiyyat, Kənd Təsərrüfatı, Ekologiya və Təbii Sərvətlər, Səhiyyə, Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin, Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin, Dövlət Energetika Xidmətinin, Dövlət Sosial Müdafiə Fondunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytları texniki tələbləri ödəmədiyindən informasiya-məlumatlandırma işi düzgün aparılmır.

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü Sara Əzimova və Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov tədbirdə çıxış edərək mərkəzi icra hakimiyyəti orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya-məlumatlandırma işinin təşkili barədə apardıqları monitorinq nəticələrini və yol verilən nöqsanları diqqətə çatdırmışlar.

İqtisadiyyat Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Çinarə Balayeva və İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Rəşid Talıbov təmsil etdikləri qurumların mətbuat və ictimaiyyətlə əlaqələr üzrə fəaliyyəti barədə danışmışlar.

“Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultan və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli mətbuat xidmətləri ilə teleradio və qəzetlər arasında əməkdaşlığın qurulmasında yol verilən nöqsanlardan geniş bəhs ediblər.

Qarşılıqlı fəaliyyətin təşkili ilə bağlı məsələlərə toxunan Sahil Tahirli deyib ki, Ali Məclis Sədrinin tapşırığı ilə keçirilən ardıcıl tədbirlərdən sonra 2018-2019-cu illərdə mətbuat xidmətlərinin Naxçıvan teleradiosu, eləcə də “Nuhçıxan” informasiya agentliyi ilə əməkdaşlığı genişlənib. Bu işdə mətbuat xidmətlərinin də üzərinə mühüm vəzifələr düşdüyünü xatırladan komitə sədri onların fəaliyyətlərindəki nöqsanlardan danışıb. Qeyd olunub ki, ictimai əhəmiyyət kəsb edən mövzularda fərdi jurnalist yazılarının hazırlanması istiqamətində fəaliyyətin əhatəli təşkilinə ciddi ehtiyac var.

“Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultan vurğulayıb ki, mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətlərinin “Şərq qapısı” ilə əməkdaşlığının qurulmasında əhəmiyyətli uğurlar əldə olunsa da, bəzi mətbuat xidmətlərinin fəaliyyətində hələ də passivlik müşahidə olunur, təqdim olunan bəzi materiallar peşəkarlıqla hazırlanmır. İnformasiya aktuallığı nəzərə alınmır, qəzetçilik üslubu gözlənilmir. Müasir cəmiyyətdə informasiya siyasətinin düzgün qurulmasına yalnız qarşılıqlı əməkdaşlığın səmərəli təşkili ilə nail olmaq mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığına uyğun olaraq muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarının mətbuat xidmətləri ilə kütləvi informasiya vasitələri nümayəndələrinin görüşünün keçirilməsi bu sahədə fəaliyyətin gücləndirilməsi və qarşılıqlı əməkdaşlıq imkanlarının müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Ötən dövrdəki fəaliyyəti təhlil edilərkən aydın olmuşdur ki, bəzi mətbuat xidmətləri işini tələb olunan səviyyədə qurmur. Təşkilatların fəaliyyəti, xüsusilə aid sahələr üzrə həyata keçirilən dövlət siyasətinin mahiyyəti barədə analitik materiallar hazırlanmır, təhlil və müqayisələr aparılmır.

Mətbuat xidmətləri ölkə Prezidenti və Ali Məclisin Sədri tərəfindən qəbul olunmuş dövlət proqramlarının icra vəziyyəti barədə məqalələr işləməli, kütləvi informasiya vasitələrindən daxil olan sorğuları operativ formada araşdırmalı və qanunvericiliyin tələblərinə uyğun olaraq qısa müddətdə cavablandırmalıdırlar. Texniki cəhətdən informasiya-məlumatlandırma işinin təşkilinə imkan verməyən mərkəzi icra hakimiyyəti orqanlarının saytları yenilənməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyinin, Vergilər Nazirliyinin və Dövlət Energetika Xidmətinin mətbuat xidmətlərinin fəaliyyətlərində dönüş yaradılmalıdır. Teleradio və qəzetlərin əməkdaşları araşdırma apardıqları mövzu ilə bağlı sorğulara aydın, əhatəli və peşəkar formada təqdim etməli, həmin informasiyalar yayılarkən mətbuat xidmətlərinə istinad olunmalıdır.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mətbuat və informasiya şöbəsinin müdiri Faiq Səfərov, Maliyyə Nazirliyinin aparat rəhbəri Tural Şirəlizadə, Naxçıvan Dövlət Teleradiosunun baş redaktorları Ruhiyyə Rəsulova, Ariz Cəfərov, Aysel Əliyeva və Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri Zəkəriyyə Gözəlov əməkdaşlıqla bağlı təkliflərini vermiş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Diskussiya şəraitində keçən tədbirdə mətbuat xidməti və kütləvi informasiya vasitələri əməkdaşları fəaliyyətin yeni tələblər səviyyəsində qurulması ilə əlaqədar təkliflər veriblər.

**“Şərq qapısı”**

*12 mart Daxili Qoşunlar Günüdür*

## İctimai sabitliyin keşiyində



*Ümummilli liderimiz Heydər Əliyevin 1995-ci il 9 mart tarixli Fərmanı ilə hər il mart ayının 12-si Azərbaycan Respublikasının “Daxili Qoşunlar Günü” kimi qeyd olunur.*

Ümummilli liderimiz Heydər Əliyevin diqqət və qayğısı ilə Daxili Qoşunlar böyük inkişaf yolu keçmiş, hərbi hissələrin müasir standartlar səviyyəsində qurulması istiqamətində tədbirlər görülmüş, bu sahənin fəaliyyətini tənzimləyən hüquqi baza yaradılmışdır. Daxili Qoşunları xalqın və dövlətin layiqli müdafiəçisi kimi görmək istəyən ulu öndərimiz deyirdi ki, ***“Gərək Daxili Qoşunlarda yüksək vətənpərvərlik ruhu olsun. Gərək bizim Silahlı Qüvvələrimizdə Azərbaycanın dövlətçiliyinə daim sədaqət olsun. Azərbaycanın güclü ordusu bu gün də, sabah da, yüz il bundan sonra da lazımdır. Bunun üçün planlı iş aparılmalı, peşəkar münasibət göstərilməlidir”.***

Ümummilli liderimiz tərəfindən əsası qoyulan ordu quruculuğu prosesi bu gün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Silahlı Qüvvələrinin mühüm tərkib hissəsi olan Daxili Qoşunların təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilir, bu sahənin maddi-texniki bazası gücləndirilir. 1995-ci il aprel ayının 10-da Daxili Qoşunların Naxçıvandakı “N” hərbi hissəsi, 2002-ci il dekabr ayının 4-də hərbi hissənin bazasında Daxili Qoşunların Naxçıvan Alayı, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 sentyabr tarixli Sərəncamı ilə isə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası yaradılmışdır. Ötən dövrdə briqada qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmiş, ictimai asayişin qorunmasında zəngin xidməti təcrübə toplayaraq hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsində mühüm nailiyyətlər qazanmışdır.

Dövlət başçısı demişdir: ***“Daxili Qoşunlar Azərbaycanda sürətlə inkişaf etmişdir, çox yüksək səviyyədə peşəkarlıq var, vətənpərvərlik var. Bu, bizim üçün çox böyük nailiyyətdir. Azərbaycanda ictimai-siyasi vəziyyətin qorunması və möhkəmləndirilməsi bizim hamımız üçün başlıca şərt olmalıdır. Yalnız bu şəraitdə ölkə uğurla inkişaf edə bilər”.***

Bu gün Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı ilə ötən dövrdə briqadanın maddi-texniki bazası xeyli möhkəmləndirilmişdir. Aparılan islahatlar, döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminat və hərbi qulluqçuların sosial vəziyyətinin yaxşılaşdırılması qarşıya qoyulan xidməti vəzifələrin layiqincə yerinə yetirilməsinə imkan verir.

Şəxsi heyətin döyüş qabiliyyətinin yüksəldilməsi ilə yanaşı, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Son illər briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasir qazanxanalar və digər sosial məişət obyektləri inşa edilmiş, hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilmişdir. Zabit-gizir ailələrinin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə 60 və 45 mənzildən ibarət iki beşmərtəbəli və 12 mənzildən ibarət üçmərtəbəli yaşayış binası istifadəyə verilmişdir.

Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının müasir döyüş texnikaları ilə təmin olunması da diqqət mərkəzində saxlanılır. Bu gün briqadada xidməti vəzifələrin yerinə yetirilməsi üçün lazımi şərait yaradılmışdır. Həyata keçirilən tədbirlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daha da yüksəldir. Hazırda Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında ciddi nizam-intizam vardır. Cəmiyyətin və dövlətin mənafeyinin qorunmasında, habelə ictimai asayişin mühafizəsində daim sayıqlıq nümayiş olunur, əsgər və zabitlər üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlirlər. Şəxsi heyətin yeni silahlardan istifadə qaydaları üzrə bilik və bacarığı təkmilləşdirilir, müntəzəm olaraq metodik təlim toplantıları, səhra çıxışları və döyüş atışlı taktiki təlimlər keçirilir. Ötən il oktyabrın 30-da və bu il fevralın 22-də Naxçıvan Qarnizonu qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin taktiki-xüsusi təlimində Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası da qaşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Muxtar respublikada Azərbaycan Respublikası Silahlı Qüvvələrinin digər birləşmə və bölmələri kimi, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi diqqət mərkəzində saxlanılır, hərbi hissənin maddi-texniki bazası ilbəil gücləndirilir... Son illər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrinin birgə taktiki təlimlərində daxili qoşunların şəxsi heyətinin də iştirakı və verilən tapşırıqların peşəkarlıqla icrası bu hərbi hissədə əldə olunan nailiyyətlərin daha bir ifadəsidir”.***

Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcək, cəmiyyətin və dövlətin mənafeyini, eləcə də vətəndaşların hüquq və azadlıqlarını etibarlı qoruyacaqdır.

***Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası***

Xalq təqvimi

## Yelli, güllü, küləkli çərşənbə

*İlaxır çərşənbələrdən üçüncüsü Yel çərşənbəsidir. Ona xalq arasında "külək oyadan çərşənbə", "küləkli çərşənbə", "yelli-güllü çərşənbə", "yelli çərşənbə" də deyirlər.*



Azərbaycan türklərində "Yel baba" obrazı kimi tanınan mifik varlıq qədim türk dünya duyumuna görə, dünyada nə külək varsa, hamısının ixtiyarını öz əlinə alır. Türklər arasında belə bir mifoloji inam dolaşmaqdadır ki, yel yeldir, onu da əsdirən var. Naxçıvan Muxtar Respublikasının ərazisindən toplanmış xalq yaradıcılığı örnəklərinə əsasən söyləmək olar ki, Yel çərşənbəsi zamanı müxtəlif ayin və mərasimlərin icrası mütləqdir. Xalq düşüncəsində yelin müqəddəs anlam daşıması xalqımızın şifahi təfəkküründə uzun müddət yaşamışdır. Bu baxımdan muxtar respublikanın bölgələrindən toplanmış mərasim örnəkləri haqqında məlumatlar yelin qədim türklərdə kult məqamında olduğunu sübut edir.

Xalq arasında bu çərşənbəyə "Quyruqlu çərşənbə" də deyilir. Bu çərşənbənin xalq arasında "Quyruqlu çərşənbə" kimi adlanması ikinci çərşənbənin də "külə" olduğunu deməyə imkan verir. Bu zaman əsən küləklər yazın gəldiyini xəbər verir, havaların isinməsi, yazın əlaməti olan bəzi çiçəklərin açması da məhz bu çərşənbədə baş verər.

Topladığımız etnoqrafik çöl materiallarına görə, "Külək çərşənbəsi"ndə küləklər əsməyə başlayır və gün ərzində bir neçə dəfə dəyişir. Bu dəyişikliklər havanın təmizlənməsi kimi qəbul edilir. Bu dövrdə əsən küləyə "vədə yeli" deyilir.

Güney tərəfdən gələn yelə "vədə yeli", "ağ yel" deyərdilər atalarımız. Bu yel hər il mart ayının əvvəlində əsər. Ağ yel isti bir yel olub qarları əridir. Bu yelin əsməsi ilə xalq "Bayram (Novruz) gəlir", – deyib sevinər:

*Əsdi vədə yeli yaz müjdəsiylə,*
*Qondu eyvanıma yenə qaranquş!*

Bəzi tədqiqatçılar yazır ki, bu külək ilin müəyyən dövründə müntəzəm əsdiyindən vədə (yəni gözlənilən vaxtda əsən) küləyi adını almışdır. Xalq arasında vədə yelinə həm də "ələyəz yeli" (ələyəz ot adıdır), "ağ yel" deyilir. Bir deyimə görə, ələyəz yeli qalxdı, artıq qar əriyər, yaz gələr. Ələyəz yelinin hansı istiqamətə əsdiyi bilinməz. Buna uyğun olaraq Naxçıvanda sözü, fikri, əqidəsi bilinməyən adama "Ələyəz yelidir, hərdən bir tərəfə əyilir", – deyirlər.

Digər bir deyimə görə, "vədə yeli" yazın yelidir. Elə ki əsməyə başladı, ağacların oyanmasına, köçəri quşların gəlməsinə köməklik göstərər.

Naxçıvan Muxtar Respublikasının Ordubad rayonundan toplanılan folklor nümunələrinə əsasən söyləmək mümkündür ki, ərazidə xalq arasında Yel çərşənbəsi zamanı yel əyəsinin ayıldığına inanc dolaşmaqdadır. Xalq belə deyir: "Yel çərşənbəsində yel ayılır, küləy əsir, ağaşdar cifdənir, havanın ağırrığı sınır". Bu inanclar qədim türklərdə yelin kult səviyyəsində olduğunu nümayiş etdirir.

Yelin "baba" hesab edilməsi xalqımızın şifahi təfəkküründə uzun zamanlar başlıca mövqedə olmuşdur.

Köçəri quşlar (leylək, durna, qaranquş) yazın ilk müjdəçiləri hesab edilir. Bu quşların gəlməsi ilə əsl yaz başlayar. Xalq arasında belə bir deyim var ki, leylək deyər: "Təzə ildə gəlmərəm, köhnə ildə də qalmaram". Xalqın müşahidələrinə əsasən demək olar ki, yazın ilk əlaməti leyləyin qayıtmasıdır. Leyləklər, əsasən, kiçik çillənin sonu, çilləbeçənin əvvəllərində gəlirlər. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, soyuq küləklər əsir. Buna "leylək boranı" deyirlər. Bu köçəri quşlar içərisində yazın carçısı qaranquşla durnanı xüsusi qeyd etmək olar. Bizim mifologiyamızda da hər iki quşun feneloji zaman hesablaması ilə əlaqəsi vardır.

Əvvəldə qeyd etdiyimiz kimi, Yel çərşənbəsində Naxçıvan Muxtar Respublikasının müxtəlif bölgələrində bir-birindən maraqlı ayin və rituallar icra edilməkdədir ki, bu ayin və ritualların çoxunda Yel Tanrısına sitayiş əks olunur. Küləyin əsməsi təmizlik işlərinə başlamağın (bayram təmizliyi) vaxtını bildirir. Evlərdəki paltar-palazın təmiz havaya çıxarılıb tozunu təmizləmək, xırmanın aktual olduğu vaxtlarda taxılın biçilib xırmana yığılması ilə icra olunan "Yel baba" mərasimi Yel tanrıçılığına inamı təsdiqləyir.

Naxçıvan Muxtar Respublikasının bölgələrində xalq yaddaşında yaşayan, yel kultuna tapınmanı ifadə edən atalar sözləri diqqətçəkəndir: Yel qayadan nə aparar?! Yelnən gələn selnən gedər. Alçaxda yatma sel aparar, ucada yatma yel aparar. Kələklə gələn küləklə gedər. Verirsə, el gətirir, sel gətirir, yel gətirir. Alırsa, el aparır, sel aparır, yel aparır.

Ərazidə kiçik janr nümunələrindən olan tapmacalar da yelin mifopoetik obrazını yaratmaq baxımından xarakterikdir:

*Hər yan ələk-vələkdir,*
*İsti tamam kələkdir.*
*Dəyirmana can verər,*
*Xırmana da gərəkdir (yel, külək).*

"Yel baba" obrazı ərazidən toplanmış inanclarda da öz əksini tapmaqdadır: "Yel çərşənbəsi gecəsi söyüd ağacının altına keçib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün yarpaqları ağaca toxunsa, diləyin yerinə yetər".

Xalq arasında deyilir ki, yaz ilin elə bir dövrüdür ki, hər şey ondan asılıdır. Gərək hər işi vaxtında, vədəsində görəsən. Bir el söyləməsində deyildiyi kimi: "Hər şey vədəyə baxsa da, vədə heç nəyə baxmaz". Xalqımıza xoş günlər, xeyir-bərəkət, sülh və əmin-amanlıq gətirməsi diləyilə Yel çərşənbəniz mübarək olsun!

**Asəf ORUCOV**
***dosent,***
**Aytən CƏFƏROVA**
***filologiya üzrə fəlsəfə doktoru***

## Mütəxəssis snayper hazırlığı kursuna yekun vurulub

*Naxçıvan Qarnizonu qoşunlarında növbəti mütəxəssis snayper hazırlığı kursu uğurla başa çatıb.*



Mərasimdə əvvəlcə Türkiyə və Azərbaycan respublikalarının Dövlət himnləri səsləndirilib.

Məzunlar adından kurs birincisi müddətdən artıq xidmət edən həqiqi hərbi xidmət hərbi qulluqçusu, baş çavuş Ramin Abdullayev çıxışında deyib ki, real döyüş əməliyyatlarına yaxın təşkil edilmiş məşğələlərdə qazandığımız təcrübələr nəticəsində ən çətin döyüş tapşırıqlarını uğurla yerinə yetirməyə hazırıq.

Türkiyə Respublikasının Silahlı Qüvvələrinin hərbi qulluqçusu, piyada qədəmli baş çavuş Murad Bayraqdar kursda qazanılan nailiyyətlərdən danışıb. Bildirilib ki, kurs zamanı gecə və gündüz şəraitində snayper tüfənglərindən müxtəlif məsafələrdə yerləşən hədəflərə ən çətin atışlar icra edilib.

Kursu müvəffəqiyyətlə bitirən məzunları təbrik edən Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik Tehran Mənsimov bildirib ki, hər iki qardaş ölkənin hərbi qulluqçularının kurs zamanı keçirilən məşğələlərdə vətənpərvərlik hissləri ilə peşəkarlıq nümayiş etdirməsi hərbi əməkdaşlığın yüksək səviyyədə olduğunun əyani göstəricisidir.

Türkiyə Respublikasının Silahlı Qüvvələrinin bir qrup hərbi qulluqçusunun təlimatçı qismində iştirak etdiyi mütəxəssis snayper hazırlığı kursunda şəxsi heyətə kəskin relyef və iqlim şəraitində fəaliyyət göstərmək üçün dözümlülük, təmkinlilik və yüksək fiziki hazırlıq kimi xüsusiyyətlər aşılanıb.

Sonra kursu daha yüksək qiymətlərlə birinci, ikinci və üçüncü yerlə başa vuran məzunlara sertifikat, döş nişanları və qiymətli hədiyyələr, eləcə də bütün məzunlara sertifikatlar və döş nişanları təqdim edilib.

Kurs birincisi tərəfindən xatirə lövhəsinə buraxılış emblemi vurulub.

**Nəriman NƏCƏFOV**

*Martın 9-da Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Milli Teatr Günü münasibətilə tədbir keçirilib.*

## Milli Teatr Günü qeyd olunub





Tədbirdə Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova çıxış edərək bildirib ki, sənət adamlarına diqqət və qayğı ilə yanaşan ölkə Prezidenti cənab İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamına əsasən hər il 10 mart ölkəmizdə "Milli Teatr Günü" kimi qeyd edilir. Nazir bu münasibətlə bütün tədbir iştirakçılarını və teatr ictimaiyyətini təbrik edib.

Qeyd edilib ki, 1873-cü il martın 10-da əsası qoyulmuş Azərbaycan milli teatrı və bundan 10 il sonra 1883-cü il mayın 11-də yaradılan Naxçıvan teatrı uzun və şərəfli yol keçib.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin milli teatr sənətinin inkişafındakı misilsiz xidmətlərindən danışan mədəniyyət naziri vurğulayıb ki, muxtar respublikamızda da teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir. Hazırda muxtar respublikadakı Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, onların asudə vaxtlarının mənalı təşkilində əhəmiyyətli rol oynayır.

Son illər ərzində Naxçıvanda fəaliyyət göstərən teatrların yaradıcılıq axtarışları, qastrol səfərləri genişlənib, kollektivlər milli dəyərlərimizin peşəkar təbliğatçısına çevriliblər.

Nazir çıxışının sonunda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinə muxtar respublikada mədəniyyətin, xüsusilə də teatr sənətinin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün tədbir iştirakçıları adından minnətdarlığını bildirib.

Tədbirin bədii hissəsində dahi Azərbaycan şair-dramaturqu Hüseyn Cavidin "Xəyyam" mənzum dramı əsasında hazırlanmış tamaşa göstərilib.

**Əli RZAYEV**

## İntellekt oyunu üzrə universiada keçirilib



*Naxçıvan Şahmat Mərkəzində "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Poliqon" strateji intellekt oyunu üzrə universiada keçirilib.*

Qalib olan komanda Bakı şəhərində təşkil olunacaq "Poliqon" strateji intellekt oyunu üzrə II Respublika Universiadasında Naxçıvanı təmsil edəcəkdir.

14 komandanın iştirak etdiyi oyun "Axtarış", "Hədəf", "Saxlama", "Zəfər" və "Ekstra" mərhələlərindən ibarət olub. Oyunda səsləndirilən 24 sualdan daha çoxuna cavab verən "Diplomat" komandası qalib adını qazanıb. "Turan" komandası ikinci, "Qisas" komandası üçüncü olub.

Qaliblərə Gənclər və İdman Nazirliyinin diplomları, fəxri fərmanları, oxunması zəruri olan kitablar, həmçinin Azərbaycan və dünya ədəbiyyatı nümunələri təqdim olunub. Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilən universiadada əvvəlcədən yaradılmış link vasitəsilə 14 komandada 90 nəfərə yaxın gənc qeydiyyatdan keçərək iştirak edib.

**✍ Ceyhun MƏMMƏDOV**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti işaxtaranları Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi peşəsi üzrə kurs keçməyə dəvət edir. Kursun tədris müddəti 3 aydır. Həmçinin kənd xidmət mərkəzlərində vakant olan dərzi yerləri üzrə işləmək istəyən işaxtaranlar da kursda iştirak edə bilərlər.

Kadrlara olan tələbat aşağıdakı kimidir:

| S/№ | Kəndin adı | Vakant yer |
|---|---|---|
| | | Dərzi |
| *Şərur rayonu üzrə* | | |
| 1. | Yuxarı Aralıq | 1 |
| 2. | Ərəbyengicə | 1 |
| 3. | Qarahəsənli | 1 |
| *Babək rayonu üzrə* | | |
| 1. | Şıxmahmud | 1 |
| | **Cəmi:** | **4** |

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim etməlidirlər:

*1. Yaşayış yerindən arayış*
*2. Şəxsiyyət vəsiqəsinin surəti*
*3. Tibbi arayış.*

***Əlaqə telefonu: 545-42-12***

### İtmişdir

Tağıyev Oruc Abbas oğlunun adına olan evin JN-188A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Sabir küçəsi, döngə 4, ev 1-də yaşayan Fərəcov Mənsum Qasım oğlunun adına olan evin 213 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 194